Heç bir yağışda sənsiz islanmağa cürət etmədiyim üçün xəyallarım pəncərədən kənara çıxa bilmədi.

Sevdası yarım qalmışlara...

## Ön söz

Bəzi hekayələr var ki, oxuduqca daha çox dərinləşir, hər dəfə yeni bir duyğu oyadır. “Qəm yağışı” da məhz belə bir hekayədir – sevginin ən saf halı, ayrılığın sarsıdıcı ağrısı və taleyin gözlənilməz sınaqları haqqında.

Bu ikinci nəşr, oxucuların hiss etdikləri ilə daha da zənginləşdi. İlk nəşrdən sonra gələn rəy və fikirlər, bu kitabın oxucunun qəlbinə toxunduğunu göstərdi.

Lalə və Altay – bir sevginin iki nəfəsi idi. Onlar sevginin nə olduğunu bildiklərini düşünürdülər, amma həyatın öz planları var idi. Bəs sevgi taleyin hökmünə qarşı dura bilərmi?

Bu hekayə sevgini yaşayan, onu itirən və heç vaxt unutmayanlar üçündür. Bəlkə də burada özünüzü, ya da çoxdan unutmağa çalışdığınız bir hissi tapacaqsınız. Amma bir şey dəqiqdir – bu yağış sizi içdən isladacaq...

Qəlbiniz bu yağışa hazırdırmı?

*Nərmin Əliyeva*

İlahi bizi yaratdığı gündən hər kəsə müəyyən bir yol cızmışdır. Bəzilərimizə yaxşı, bəzilərimizə pis və biz bizə yazılan o yolda yeriməyə məcburuq, bunu istəsək də, istəməsək də. Hər insanın bir yarı vardır ki, onu tapa bilən ən xoşbəxt insandır. Mənim də bir yarım var. Sevgi sonu haqda düşünə bilmədiyin yeganə hissdir və elə bir ilahi qüvvəyə malikdir ki, kədərli anlarında belə sənə ürək dolu sevinc, xoşbəxtlik bəxş edir.

Hər bir həqiqi eşq ümid edilmədən çevrilmələrə yol açar. Eşq bir milad deməkdir, əgər eşqdən əvvəl və eşqdən sonra eyni insan olaraq qalırsansa, kifayət qədər sevməmisən deməkdir. Birini sevirsənsə, onun üçün edəcəyin ən mənalı şey dəyişməkdir. O qədər çox dəyişməlisən ki,

sən “sən” olmaqdan çıxmalısan. “Hər zaman insan sevdiyi üçün ölməlidir”, – deyərlər, amma bu səhvdir. İnsan sevdiyi üçün ölməyi yox, yaşamağı seçməlidir. Onun üçün savaşmağı, onu bütün təhlükələrdən qorumağı, hər şeyə inad yanında olmağı seçməlidir, çünki sevgi Allahın insanlara bəxş etdiyi ən gözəl nemətdir.

Sevgi bir rəsmdir. Təbiət cızmış, həyat bəzəmişdir. Sevgi qum saatına bənzər, bir tərəfə axdıqca qəlbini alar, digər tərəfə çevriləndə ağlını.

Mən, Lalə... 10 avqust saat 10:30-da baş ağrısı ilə xəstəxanaya getdim. Həkimlərin yoxlamaları və verdiyim analizlərin nəticələrinə əsasən bu həyatda ömrümün az qaldığını öyrəndim və ürəyimdə iz buraxan birinə məndən iz buraxmaq üçün yazıram bu hekayəni.

Hər qadın sevmək, sevdiyi adamın sevdası olmaq istər. Mən bunu yaşadım. Elə bir sevda idi ki, bizim sevdamız dinləyəni ağladır, yaşayana isə bu həyatda həm cənnəti, həm cəhənnəmi yaşadır. Altay bütün varlığı ilə sevdiyim, sevgisini hər zərrəmdə hiss etdiyim və heç vaxt sevməkdən doymadığımdır.

Mənim hekayəm 7 il əvvəl başladı.

7 il əvvəl…

Bu günə kimi həyatımın gəlib keçmiş ən gözəl və ən qəmgin günlərindən birini yaşayırdım. Həm yeni həyatımın həyəcanı var idi içimdə, həm də qorxusu. Yeni bir başlanğıcın mənim həyatıma nələr qatacağından xəbərsiz idim.

Yeni şəhər, yeni bir başlanğıc məni və ailəmi həyacanlandırırdı. Qarşıda bizi daha gözəl günlərin gözlədiyi ümidi ilə arxamızda buraxdığımız evimizə son bir dəfə dönüb baxdım. Həm sevincimizi, həm kədərimizi paylaşdığımız bu ev bizim yuvamız idi. İndi isə yeni bir yuva və başlanğıc üçün yollara düşürdük. Həyatın bizə nələr gətirəcəyindən xəbərsiz çantalarımızı götürüb hava limanının yolunu tutduq.